*Professor elmi adı iddiaçıları üçün*
*elmi adın verilməsi ilə bağlı normativ sənədlər əsasında hazırlanmışdır.*




# PROFESSOR
## elmi adı

PROFESSOR elmi adı elmi və elmi-pedaqoji fəaliyyətə görə, elmi dərəcəsi olan iddiaçılara, elmi dərəcənin verildiyi elm sahəsində, habelə Azərbaycan Respublikasında elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində mədəniyyət, incəsənət, memarlıq, hərbi, bədən tərbiyəsi və idman sahələrində uzun müddət qüsursuz çalışan və əhəmiyyətli nailiyyətlər əldə etmiş, lakin elmi dərəcəsi olmayan iddiaçılara elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarının vəsatətləri əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra - Komissiya) tərəfindən verilir.

Professor elmi adı Komissiyanın təsdiq etdiyi "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələr verilməsinə dair ixtisasların nomenklaturu"na daxil olan ixtisaslardan biri üzrə verilir.

# ELMİ FƏALİYYƏTƏ GÖRƏ

## *Elmlər doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının azı **5** (beş) il elmi iş stajı olmalıdır;
- iddiaçı elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra azı **1** (bir) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrinin elmi-tədqiqat bölmələrində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- direktor(rəhbər);
- elmi katib;
- baş elmi işçi;
- aparıcı elmi işçi;
- elmi işlər üzrə direktor müavini;
- şöbə və ya laboratoriya müdiri;
- şöbə və ya laboratoriya müdirinin müavini;
- böyük elmi işçi.

## *İddiaçı elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra:*

müvafiq ixtisas üzrə monoqrafiya (elmi şuranın qərarı ilə çapa tövsiyə edilməli və həcmi **400 000** (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir;

müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium) nəticələri üzrə azı **3** (üç) məruzə və tezislər, o cümlədən azı **1** (bir) məruzə xaricdə dərc edilməlidir.

## *İddiaçı aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:*

elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə azı **5** (beş), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı **2** (iki), dəqiq və təbiət elmləri üzrə azı **3** (üç) elmi məqalə təqdim etməli

iddiaçının elmi rəhbərliyi və ya məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **2** (iki) mütəxəssis elmi dərəcə almalıdır.

və ya

iddiaçının elmi rəhbərliyi
iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı **4** (dörd) mütəxəssis elmi dərəcə almalıdır.

və ya

iddiaçının siyahısı Komissiya tərəfindən müəyyən edilən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində ( bazalarında) H-indeksi humanitar və ictimai elmlər üzrə azı **5** (beş), dəqiq və təbiət elmləri üzrə azı **10** (on) olmalıdır (özünə istinadlar istisna olmaqla)

və ya

iddiaçı müvafiq ixtisas üzrə xaricdə siyahısı Komissiya tərəfindən müəyyən edilən akademik nəşriyyatlarda həmmüəllifsiz monoqrafiya (xarici dildə, elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi şurasının qərarı ilə çapa tövsiyə edilməli, fəlsəfə doktoru dissertasiyasını təkrarlamamalı və həcmi **dörd yüz min işarədən** az olmamalı) nəşr etdirməlidir (bu halda bu Əsasnamənin 3.13-cü yarımbəndində nəzərdə tutulmuş monoqrafiyanın nəşr etdirilməsi tələb olunmur).

# ELMİ FƏALİYYƏTƏ GÖRƏ

## *Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının azı **10** (on) il elmi iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **1** (bir) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı müvafiq ixtisas üzrə xaricdə siyahısı Komissiya tərəfindən müəyyən edilən akademik nəşriyyatlarda həmmüəllifsiz monoqrafiya (xarici dildə, elmi şuranın qərarı ilə çapa tövsiyə edilməli, fəlsəfə doktoru dissertasiyasını təkrarlamamalı və həcmi **400 000** (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir.

İddiaçı elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrinin elmi-tədqiqat bölmələrində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- direktor (rəhbər);
- elmi işlər üzrə direktor müavini;
- elmi katib;
- şöbə və ya laboratoriya müdiri;
- şöbə və ya laboratoriya müdirinin müavini;
- baş elmi işçi;
- aparıcı elmi işçi;
- böyük elmi işçi.

### *İddiaçının dosent elmi adı aldıqdan sonra:*

müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **2**-si (ikisi) - xaricdə) məruzə və tezislərinin sayı azı **5** (beş) olmalıdır.

### *İddiaçı aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:*

dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə müvafiq ixtisas üzrə azı **15** (on beş), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı **5** (beş), dəqiq və təbiət elmləri üzrə azı **10** (on) (o cümlədən azı **5**-i (beşi) həmmüəllifsiz) elmi məqalə təqdim etməli
iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığıazı **2** (iki) mütəxəssis elmi dərəcə almalıdır.

və ya

dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə müvafiq ixtisas üzrə azı **10** (on), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı **3** (üç), dəqiq və təbiət elmləri üzrə azı **7** (yeddi) elmi məqalə təqdim etməli
iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **4** (dörd) mütəxəssis elmi dərəcə almalıdır.

və ya

və ya

iddiaçının siyahısı Komissiya tərəfindən müəyyən edilən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində (bazalarında) H-indeksi humanitar və ictimai elmlər üzrə azı **5** (beş), dəqiq və təbiət elmləri üzrə azı **10** (on) olmalıdır (özünə istinadlar istisna olmaqla)

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ

***Elmlər doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra azı **1** (bir) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra:***

müvafiq ixtisas üzrə dərc olunmuş azı **5** (beş), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc olunmuş humanitar və ictimai elmlər üzrə azı **2** (iki), dəqiq və təbiət elmləri üzrə azı **3** (üç) elmi məqalə təqdim etməlidir

və ya

iddiaçının elmi rəhbərliyi və ya məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **2** (iki) mütəxəssis elmi dərəcə almalıdır;

müvafiq ixtisas üzrə monoqrafiya (elmi şuranın qərarı ilə çapa tövsiyə edilməli və həcmi **400 000** (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir;

müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə azı **3** (üç) (o cümlədən azı **1**-i (biri) - xaricdə) məruzə və tezislər dərc etdirməlidir.

***İddiaçı dosent elmi adı aldıqdan sonra:***

müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **400 000** (dörd yüz min) işarədən az olmamamaqla dərslik və ya dərs vəsaitləri) təqdim etməlidir.

# ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ

## *Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının azı **10** (on) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **1** (bir) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı müvafiq ixtisas üzrə xaricdə siyahısı Komissiya tərəfindən müəyyən edilən akademik nəşriyyatlarda həmmüəllifsiz monoqrafiya (xarici dildə, elmi ş uranın qərarı ilə çapa tövsiyə edilməli, fəlsəfə doktoru dissertasiyasını təkrarlamamalı və həcmi **400 000** (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir.

***İddiaçı dosent elmi adı aldıqdan sonra:***

müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **400 000** (dörd yüz min) işarədən az olmamaqla dərslik və ya dərs vəsaitləri) təqdim etməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

İddiaçının müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **2**-si (ikisi) - xaricdə) məruzə və tezislərinin sayı azı **5** (beş) olmalıdır.

***İddiaçı aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:***

dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə müvafiq ixtisas üzrə azı **15** (on beş), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı **5** (beş) dəqiq və təbiət elmləri üzrə azı **10** (on) elmi məqalə təqdim etməlidir.

iddiçının siyahısı Komissiya tərəfindən müəyyən edilən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində (bazalarında) H-indeksi humanitar və ictimai elmlər üzrə azı **5** (beş), dəqiq və təbiət elmləri üzrə azı **10** (on) olmalıdır (özünə istinadlar istisna olmaqla)

və ya

dosent elmi adı aldıqdan sonra müvafiq ixtisas üzrə azı **10** (on), o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dö vri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı **3** (üç) , dəqiq və təbiət elmləri üzrə azı **7** (yeddi) elmi m əqalə təqdim etməlidir və iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **iki** mütəxəssis elmi dərəcə almalıdır.

# ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ

## *Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının azı **35** (otuz beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı azı **2** (iki) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı müvafiq ixtisas üzrə fəlsəfə doktoru dissertasiyasını təkrarlamamaqla həmmüəllifsiz monoqrafiya (elmi şuranın qərarı ilə çapa tövsiyə edilməli və həcmi **400 000** (dörd yüz min) işarədən az olmamalı) nəşr etdirməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

## *Dosent elmi adı aldıqdan sonra:*

iddiaçı müvafiq ixtisas üzrə həmmüəllifsiz tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **400 000** (dörd yüz min) işarədən az olmamamaqla dərslik və ya dərs vəsaitləri) təqdim etməlidir;

iddiaçının dövri elmi nəşrlərdə dərc edilmiş məqalələrinin ümumi sayı azı **20**-dən (iyirmidən) az olmamalıdır;

iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **2** (iki) mütəxəssis elmi dərəcə almalıdır;

iddiaçının müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc olunmuş (o cümlədən azı **2**-si (ikisi) – xaricdə) məruzə və tezislərinin sayı azı **5** (beş) olmalıdır.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(mədəniyyət, incəsənət və ya memarlıq sahəsində)

***Elmlər doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı azı **1** (bir) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı mədəniyyət, incəsənət və ya memarlıq sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:***

- xalq artisti;
- əməkdar incəsənət xadimi;
- xalq rəssamı;
- əməkdar rəssam;
- əməkdar artist;
- əməkdar memar

**və ya**

uyğun sahələr üzrə respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatı və ya qalibi olmalı, yaxud onları hazırlamalıdır.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(mədəniyyət,incəsənət və ya memarlıq sahəsində)

***Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının elmi-pedaqoji fəaliyyət və ya yaradıcılıq sahəsində azı **10** (on) il iş stajı, o cümlədən ixtisas üzrə azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **1** (bir) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***Dosent elmi adı aldıqdan sonra:***

iddiaçı müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir;

iddiaçının müvafiq sahə üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **1**-i (biri) - xaricdə) məruzə və tezislərinin sayı azı **3** (üç) olmalıdır.

**İddiaçı mədəniyyət, incəsənət və ya memarlıq sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:**

| | | |
|---|---|---|
| -xalq artisti; | - xalq rəssamı; | - əməkdar |
| - əməkdar incəsənt xadimi; | - əməkdar rəssam | - əməkdar memar |

**və ya**

uyğun sahələr üzrə respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatı və ya qalibi olmalı, yaxud onları hazırlamalıdır.

***İddiaçı dosent elmi adı aldıqdan sonra aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:***

müvafiq ixtisas üzrə yaradıcılıq fəaliyyətinin əhəmiyyətli nəticəsini təqdim etməlidir;

və ya

respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatı, qalibi, diplomantı olmalı və ya onları hazırlamalıdır;

və ya

iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **1** (bir) mütəxəssis elmi dərəcə almalıdır;

və ya

ixtisas üzrə yaradıcılıq işinə dair azı **1** (bir) patent təqdim etməlidir.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(mədəniyyət,incəsənət və memarlıq sahəsində)

### *Elmi dərəcəsi olmayan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının elmi-pedaqoji fəaliyyət və ya yaradıcılıq sahəsində azı **25** (iyirmi beş) il iş stajı, o cümlədən ixtisas üzrə azı **10** (on) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən əsas iş yerində azı **2** (iki) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

### *Dosent elmi adı aldıqdan sonra:*

iddiaçı müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir;

iddiaçının müvafiq sahə üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **1**-i (biri) - xaricdə) məruzə və tezislərinin sayı azı **3** (üç) olmalıdır;

iddiaçı müvafiq ixtisas üzrə azı **5** (beş) elmi əsər təqdim etməlidir.

***İddiaçı incəsənət və memarlıq sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:***

- xalq artisti
- xalq rəssamı
- əməkdar incəsənət xadimi
- əməkdar memar

### *İddiaçı dosent elmi adı aldıqdan sonra aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:*

müvafiq ixtisas üzrə yaradıcılıq fəaliyyətinin azı **2** (iki) əhəmiyyətli nəticəsini təqdim etməlidir;

və ya

azı **2** (iki) dəfə respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatı, qalibi, diplomantı olmalıdır;

və ya

azı **2** (iki) nəfər respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatını, qalibini və ya diplomantını hazırlamalıdır;

və ya

ixtisas üzrə yaradıcılıq işinə dair azı **1** (bir) patent təqdim etməlidir.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(hərbi sahədə)

***Milli təhlükəsizlik və hərbi elmlər doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı azı **1** (bir) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor (rəis);
- elm və ya tədris işləri üzrə prorektor (rəis müavini);
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı hərbi sahədə əhəmiyyətli nailiyyətlər əldə etməlidir:***

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və zabit kadrların hazırlanmasında xüsusi xidmətləri olmalıdır.

# ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(hərbi sahədə)

***Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçı azı **10** (on) il hərbi sahədə xidmət göstərməli, o cümlədən onun ixtisas üzrə azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **1** (bir) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor (rəis);
- elm və ya tədris işləri üzrə prorektor (rəis müavini);
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı hərbi sahədə əhəmiyyətli nailiyyətlər əldə etməlidir.***

***İddiaçı dosent elmi adı aldıqdan sonra:***

müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir

və ya

iddiaçının elmi rəhbərliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı **1** (biri) mütəxəssis elmi dərəcə almalıdır;

müvafiq ixtisas üzrə azı **3** (üç) elmi əsər təqdim etməlidir.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(hərbi sahədə)

***Elmi dərəcəsi olmayan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçı azı **25** (iyirmi beş) il hərbi sahədə xidmət göstərməli, o cümlədən onun ixtisas üzrə azı **10** (on) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **2** (iki) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:

- rektor (rəis);
- elm və ya tədris işləri üzrə prorektor (rəis müavini);
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı hərbi sahədə əhəmiyyətli nailiyyətlər əldə etməlidir:***

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində
və zabit kadrların hazırlanmasında xüsusi xidmətləri olmalıdır.

***İddiaçı dosent elmi adı aldıqdan sonra:***

müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir

və

müvafiq ixtisas üzrə azı **5** (beş) elmi əsər təqdim etməlidir.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(bədən tərbiyəsi və idman sahəsində)

***Elmlər doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı azı **1** (bir) il tutduğu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı bədən tərbiyəsi və idman sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:***
- əməkdar məşqçi;
- əməkdar idman ustası;
- əməkdar bədən tərbiyəsi və idman xadimi;
- respublika və ya beynəlxalq miqyaslı yarışların çempionu olmalı və ya onları hazırlamalıdır.

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(bədən tərbiyəsi və idman sahəsində)

### *Fəlsəfə doktoru elmi dərəcəsi olan, dosent elmi adı almış iddiaçılar üçün tələblər*

- iddiaçının bədən tərbiyəsi və idman sahəsində azı **10** (on) il iş stajı, o cümlədən ixtisas üzrə azı **5** (beş) il elmi-pedaqoji iş stajı olmalıdır;
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **1** (bir) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***İddiaçı bədən tərbiyəsi və idman sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:***
- əməkdar məşqçi;
- əməkdar idman ustası;
- əməkdar bədən tərbiyəsi və idman xadimi;
- respublika və ya beynəlxalq miqyaslı yarışların çempionu olmalı və ya onları hazırlamalıdır.

***İddiaçı dosent elmi adı aldıqdan sonra:***

| | | | |
|---|---|---|---|
| müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir; | müvafiq sahə üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **1**-i (biri) - xaricdə) məruzə və tezislərinin sayı azı **3** (üç) olmalıdır; | müvafiq ixtisas üzrə azı **3** (üç) elmi əsər təqdim etməlidir; | müvafiq sahə üzrə respublika və ya beynəlxalq miqyaslı yarışların hakimi və ya çempionu olmalı, yaxud onları hazırlamalıdır. |

## ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ GÖRƏ
(bədən tərbiyəsi və idman sahəsində)

***Elmi dərəcəsi olmayan, dosent elmi adı almış iddiaçılar üçün tələblər***

- iddiaçının bədən tərbiyəsi və idman sahəsində azı **25** (iyirmi beş) il iş stajı, o cümlədən ixtisas üzrə azı **10** (on) il elmi-pedaqoji iş stajı olmalıdır.
- iddiaçı dosent elmi adı aldıqdan sonra azı **5** (beş) il (o cümlədən azı **2** (iki) il tutduğu vəzifədə) qüsursuz və müvəffəqiyyətlə işləməlidir.

İddiaçı ali təhsil müəssisəsində aşağıdakı vəzifələrdən birini tutmalıdır:
- rektor;
- elm və ya tədris işləri üzrə prorektor;
- dekan;
- kafedra (departament, mərkəz) müdiri;
- professor.

***Dosent elmi adı aldıqdan sonra:***

iddiaçı müvafiq ixtisas üzrə tədris-metodiki iş və ya işlər (elmi şuranın qərarı ilə tədris-metodiki vəsait kimi çapa tövsiyə edilməli və ümumi həcmi **200 000** (iki yüz min) işarədən az olmamalı) təqdim etməlidir;

iddiaçının müvafiq sahə üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı **1**-i (biri) - xaricdə) məruzə və tezislərinin sayı azı **3** (üç) olmalıdır;

iddiaçı müvafiq ixtisas üzrə azı **5** (beş) elmi əsər təqdim etməlidir.

***İddiaçı bədən tərbiyəsi və idman sahəsində aşağıdakı əhəmiyyətli nailiyyətlərdən birini əldə etməlidir:***
- əməkdar məşqçi;
- əməkdar idman ustası;
- əməkdar bədən tərbiyəsi və idman xadimi.

***İddiaçı dosent elmi adı aldıqdan sonra aşağıdakı tələblərdən birini yerinə yetirilməlidir:***

azı **2** (iki) dəfə respublika və ya beynəlxalq miqyaslı yarışların hakimi və ya çempionu olmalıdır;

və ya

azı **2** (iki) nəfər respublika və ya beynəlxalq miqyaslı yarışların çempionunu hazırlamalıdır.

## PROFESSOR elmi adının verilməsi

Elmi adın verilməsi məsələsinə Komissiyanın Rəyasət Heyətində baxılır və qərar qəbul edilir.

Rəyasət heyətinin qərarları iclaslarda iştirak edən üzvlərin üçdə ikisinin səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul edilir və Komissiya sədrinin əmrləri ilə rəsmiləşdirilir.

Komissiyada elmi adlar verilməsinə dair vəsatətlərə daxil olduğu gündən **3** (üç) ayadək baxılır. Sənədlərin ekspertizasının keçirilməsi üçün əlavə müddət tələb olunduğu hallarda Komissiya səbəbini əsaslandıraraq, bu müddəti **3** (üç) aya qədər artıra bilər.

Elmi adlar verilməsinə dair vəsatətlərə baxılma müddətinə ilin iyul və avqust ayları daxil deyildir.

Komissiya elmi adlar verilməsinə dair vəsatət və sənədlərin mövcud tələblərə uyğunluğuna nəzarətin həyata keçirilməsi ilə bağlı Komissiyaya tövsiyələr vermək üçün öz nəzdində müxtəlif elm sahələri üzrə ekspert şuraları yaradır.

Ekspert şurasına dəvət olunmuş iddiaçı üzrsüz səbəbə görə **2** (iki) ay müddətində iclasa gəlmədikdə, Komissiya elmi adlar verilməsinə dair sənədlərin ekspertizasını dayandırır və iddiaçıya elmi ad verilməsindən imtina barədə qərar qəbul edir.

Komissiya elmi adlar verilməsindən imtinaya dair qərar qəbul etdiyi tarixdən azı **1** (bir) il keçdikdən sonra elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi şuraları həmin şəxsə həmin elmi adın verilməsi barədə təkrar vəsatət qaldıra bilərlər.

## Elmi addan məhrumetmə və elmi adın bərpası

Komissiya aşağıdakı hallarda elmi addan məhrumetmə ilə bağlı qərar verir:

- şəxs elmi dərəcədən məhrum edildikdə
- elmi adın verilməsi proseduru pozulduqda
- elmi plagiat aşkar edildikdə
- elmi etika pozulduqda

Elmi addan məhrumetmə və elmi adın bərpası üçün təqdim olunan sənədlərə bu barədə müraciətin daxil olduğu gündən **4** (dörd) ay müddətində baxılır. Sənədlərin ekspertizasının keçirilməsi üçün əlavə müddət tələb olunduğu hallarda Komissiya bu müddəti **2** (iki) aya qədər artıra bilər.

Komissiya şəxslərin elmi addan məhrumetmə (elmi adın bərpası) məsələsinə, elmi addan məhrumetmənin (elmi adın bərpasının) əsasları göstərilməklə, elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi şuralarının vəsatəti və ya fiziki şəxslərin müraciətləri əsasında baxır və qərar qəbul edir.
Fiziki şəxsin imzası ilə müraciətində onun soyadı, adı və atasının adı (şəxsiyyət vəsiqəsinin surəti əlavə olunmaqla), electron və poçt ünvanı, əlaqə nömrələri göstərilir.

Komissiya elmi addan məhrumetmənin (elmi adın bərpasının) əsaslarını özü aşkar etdiyi halda həmin məsələyə öz təşəbbüsü ilə baxır.

Elmi addan məhrumetmə (elmi adın bərpası) məsələsinə ekspert şurasında həmin şəxsin iştirakı ilə baxılır. Aidiyyəti şəxs üzrsüz səbəbdən iclasda iştirak etmədikdə, elmi addan məhrumetmə (elmi adın bərpası) məsələsinə onun iştirakı olmadan baxıla bilər.

Elmi addan məhrumetmə məsələlərinə elmi adın verildiyi tarixdən **10** (on) il keçdikdən sonra baxılmır.